Prof.Dr. Kamil Veli Nerimanoğlu'nun 75. Doğum Yılına Özel Armağan Sayısı
ATDD
ISSN: 2148-2292
AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ
Academic Journal of History and Idea
*Araştırma Makalesi* *https://doi.org/10.46868/atdd.169* *Original Article*

# Bəxtiyar Vahabzadənin dramaturgiyasında türkçülük

**Günəş Quliyeva***
**ORCID: 0000-0002-7147-7151**

**Xülasə**

Bəxtiyar Vahabzadə müdrik bir vətəndaş, sənətkar kimi yaxşı bilirdi ki, türk dünyasını parçalayan başlıca faktor qardaşın qardaşa qılınc çəkməsi olub. Buna görə də "Özümüzü kəsən qılınc"da bu qorxulu ənənənin alt qatını bütün çılpaqlığı ilə açmağa çalışmış, qardaşın qardaşa açdığı savaşın türk insanına yaşatdığı acı aqibəti müdrikcəsinə anlatmışdır. Böyük sənətkarın dram əsərlərinin bir çoxu türk tarixinin, ideologiyasının var olma, yaranış dövrünü əhatə etsə də, bu əsərlərdə qoyulan problemlər çağdaş durumla həmahəng səsləşir, zaman-zaman türk insanının, eləcə də xalqımızın başına gətirilən müsibətləri göz önünə gətirir. Onun tarixi dramları ilk növbədə türkün tarixi və bu müstəvidə bir ibrət dərsliyidir. Bu əsərlər türkün türkə qarşı açdığı savaşların acı nəticələrini yenidən göz önünə gətirir. Çox vaxt tarix təkrar olunur və milli unutqanlıq sindromu türk düşüncəsinə yenidən hakim kəsilir. Bu məqamda böyük şair oxucunu, hər bir türk insanının səhvlərindən ibrət dərsi almağa çağırır. Oyadır. İstiqamət verir! Onun tarixi mövzuda yazdığı əsərlər Türk dünyası üçün əsl ibrət kitabıdır, vəsiyyətnaməsidir.

**Açar sözlər:** B.Vahabzadənin dram əsərləri, "Göytürklər" dramı, "Dar ağacı" və s. dram əsərlərində türkçülük, türkçülük düşüncəsi.

**Gönderme Tarihi: 01/06/2021** **Kabul Tarihi:29/08/2021**

---

* *BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının fəlsəfə doktoru proqramı üzrə dissertantı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, Bakü- Azerbaycan, g.quliyeva1981@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
QULİYEVA, G., ‘‘ Bəxtiyar Vahabzadənin dramaturgiyasında türkçülük ’’, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3-Ek, 2021, s.28-43.

# Turkism in the dramaturgy of Bakhtiyar Vahabzade

**Gunesh Guliyeva** [*]
**ORCID: 0000-0002-7147-7151**

**Abstarct**

Bakhtiyar Vahabzadeh, as a wise citizen and artist, knew very well that the main factor that divided the Turkic world was the brother's sword-wielding brother, wisely described the bitter fate. It should be noted with pride that the national poet B.Vahabzadeh presented great works to the stage of the Turkic peoples in general in the form of plays written in the direction of propaganda and glorification of the Turkic thought and struggle. Although it covers the period of its creation, the problems and events described in these works resonate with the modern situation, as a rule, from time to time bring to mind the tragedies that befell the Turkish people, as well as our people. His historical dramas are first of all a history of the Turks and a textbook in this field. These works re-imagine the bitter consequences of the wars waged by the Turks against the Turks. History often repeats itself, and the syndrome of national forgetfulness re-dominates Turkish thought. At this point, the great poet urges the reader, first of all, to learn a lesson from the mistakes of every Turk. He is awake. Gives direction! His works on history are real lessons for the Turkic world, a testament.

**Keywords:** B.Vahabzade's plays, Turkish history, drama "Goyturks", "Narrow tree", etc. Turkism in plays, the idea of Turkism.

**Received Date: 01/06/2021** **Accepted Date: 29/08/2021**

---

[*] *Dissertant of the Doctor of Philosophy program of the "History of Azerbaijan Literature" department of Baku State University, teacher of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University, Bakı- Azerbaijan, g.quliyeva1981@gmail.com*

***You can refer to this article as follows:***
QULİYEVA, G., ‘‘ Bəxtiyar Vahabzadənin dramaturgiyasında türkçülük ’’, *Academic Journal of History and Idea*, Vol. 8, Issue 3- additional, 2021, p.28-43.

# Тюркизм в драматургии Бахтияра Вахабзаде

**Гюнеш Гулиева***
**ORCID: 0000-0002-7147-7151**

**Резюме**

Являясь мудрым гражданином и мастером своего дела, Бахтияр Вахабзаде прекрасно знал, что главный фактором, который способствует разделению тюркского мира, это межбратская рознь. С этой целью поэт в своей работе «Меч, который убивает нас» попытался раскрыть тонкость этой ужасной картины во всей ее наготе, а также мудро объяснил горькие последствия войны между тюркскими братьями. Необходимо с гордостью отметить, что народный поэт Б.Вахабзаде вложил в культуру тюркских народов великолепные произведения в виде пьес, которые были написаны в направлении пропаганды и прославления тюркской мысли и борьбы.Несмотря на то что многие драматические работы великого писателя охватывают начальные стадии тюркской истории, тюркской мысли и идеологии, также освещенные проблемы и события в этих произведениях, имеют сходства с современной ситуацией, как правило, с трагедиями, которые время от времени постигают тюркского человека и в том числе наш народ. Исторические драмы, написанные Б.Вахабзаде является прежде всего историей тюрок и хрестоматией в этой области. Эти работы переосмысливают горькие последствия межтюркские войны. История часто повторяется, и в тюркской мысли преобладает синдром национальной забывчивости, и здесь великий поэт призывает читателя, прежде всего, извлечь урок из ошибок каждого тюрка. Пробуждает! Указывает путь! Исторические труды, написанные великим мастером - настоящий урок для тюркского мира, завещание

**Ключевые слова:** Драматические работы Бахтияра Вахабзаде, тюркская история, драма “Гёктюрки”, “Дерево смерти” и т.д. тюркизм в драматических произведениях, тюркская мысль.

**Получено: 01/06/2021** **Принято: 29/08/2021**

---

**Диссертант программы доктора философии кафедры истории Азербайджанской литературы БГУ, преподаватель Азербайджанского Государственного Педагогического Колледжа при Азербайджанском Государственном Педагогическом Университете, Баку-Азербайджанг, quliyeva1981@gmail.com*
***Ссылка на статью:***
QULİYEVA, G., ‘’ Bəxtiyar Vahabzadənin dramaturgiyasında türkçülük ’’, *академическая история и мысль*, T.8, NO.3- дополнительный, 2021, C.28-43.

**Giriş**

Bəxtiyar Vahabzadənin dramaturgiyası ilə yaxından tanış olduqca anlayırsan ki, o da öz mənəvi ustadlarından biri olan Ömər Faiq Nemanzadə kimi, zamanla deyil, günlə, ayla yaşamış, vətənin və xalqın fərdlərinə çıraq kimi alışıb yanmış, türkçülük düşüncəmizin formalaşması naminə söz sənətinin, o cümlədən, dramaturgiyanın bütün imkanlarından istifadə etmişdir.

Göytürk tarixi dramaturji əsər üçün o qədər zəngin material verir ki, istər –istəməz dramaturqun qarşısında nəyi qabartmaq problemi doğurur... Göytürklərin tarixi doğrudan da drama sığmır, ekran tələb edir... Ömrün vəfa edəcəyinə əmin deyiləm. "Göytürklər" dramım bəlkə də "Qu-quşunun son nəğməsi" oldu.[1] Bu baxımdan böyük sənətkarın qələmə aldığı "Dar ağacı" dramı çox səciyyəvidir. Türk insanının yenilməzliyi, milli–mənəvi dəyərlərə hesablanmış yaşam və mübarizə tərzi "Dar ağacı"nda bütün gerçəkliyi ilə öz ifadəsini tapıb. Babək obrazı əsərdə bir rəmz kimi götürülüb. Ən çətin problemli məqamlarda toplum "Babək, köməyimizə gəl, Babək, Babək "- deyə hayqırır. Ölümüylə, qətliylə belə dirilik tapan xalq qəhrəmanı Babəkin ölməz, əbədiyaşar ruhu əsərdə türkçülük düşüncəsinin yenilməzliyi, gələcəyə hesablanmış gerçəklik kimi təqdim edilir. Xalq qəhrəmanının oğlu kimi qələmə alınan Sabutay əsərin ilk şəkillərində müqəddəs islam dini pərdəsi altında xalqı çapıb-talayan ərəb sərkərdələrinin vədlərinə aldanır, onlara inanır və elə bu aldanışın təsiri ilə öz qövmünü gəlmələrə xidmət etməyə səsləyir, onların mövqeyindən çıxış edir.

**Türk tarixi B.Vahabzadənin "Dar ağacı"nda**

Xilafətin Azərbaycanda valisi (və böyük sərkərdə) kimi tanınan Akşin əsərdə Babəkin doğma qardaşı kimi təqdim olunur. O Babəkin (yəni qardaşının) oğlu Sabutayı gəlmələrlə yerli əhali arasında körpüyə, vasitəyə çevirmək istəyir və buna görə də ona böyük imtiyazlar verir. Sərkərdə seçir. Təbliğ edir ki, Babək səhv yolla getdiyi üçün məğlub oldu, nəslimizə ləkə gətirdi, əmi, qardaşoğlu birləşib bu ləkəni yumalıyıq, Əmir–əl möminin etimadını qazanmalıyıq. Sabutaysa bütün yalnışılıqlarına baxmayaraq, atasının ruhuna sadiqdir. Əmisinə xatırladır ki:

---

[1] *Türk dünyasının Bəxtiyarı*, Təfəkkür nəşriyyatı, Bakı 2002, səh.380-381

“Sabutay : - Babəkin ruhu yaşayır.

Akşin : - Necə yəni ?

Sabutay : Adı dildən düşmür. Onun ruhu cismindən güclü imiş... Nənəm deyir ki, Akşin xəlifədən aman istəyəcək Babəkə.

Akşin : İstədim. Xəlifə verdi. Babək şərtlərlə razılaşmadı. O əsl qəhrəman kim savaşdı və qəhrəman kimi də öldü.

Sabutay : - Son dəfə nə dedi?

Akşin : Qəhqəhə çəkib güldü.

Sabutay : Demək o son nəfəsə qədər öz əqidəsindən dönməmiş. Bu cəsarət hansı inamdan, hansı əqidədən doğur, əmi?[2]

Akşindən fərqli olaraq Sabutay və Akşinin öz atası tərəfindən atılmış doğmaca qızı Çılğın dramın sonrakı fəsillərinə doğri qəti şəkildə anlayırlar ki, Babəkin cəsarətinin kökündə, təməlində türkçülük sevdası, türkçülük savaşı dayanır. Türkçülük bu böyük xalq qəhrəmanının əqidə, ideya mənbəyidir. Bu səbəbdən də o, milli xəyanət yolu ilə gedən, var-dövlət və mənsəb xatirinə gəlmələrin nökərinə, əlaltısına çevrilən qardaşı Akşini lənətləyir:

“Babəkin teyfi: - Sənə yazığım gəlir, Akşin! Nə qədər miskinsən... Yadellilərin təşəkkürünü qazanmaq üçün öz xalqına düşmən kəsilən sən bədbəxtin aqibətinə gülürəm”[3]

Babəkin qınaqlı qəhqəhələri üstündən Akşinin üstünə el ağsaqqalının haqlı iradları yağır.” Doxsan il ömür sürmüşəm. Hələ görməmişdim ki, qılınc öz qınını kəsə, adam öz yediyi qaba tüpürə, öz ocağını dağıda. Elə bu xəyanətlərin nəticəsidir ki, Akşin öz doğma qızı Çılğının ölümünə fətva verməyin günahına batır. Xalqına qarşı çıxan, ona xəyanət edən ata bu cür cəzalandırılır. Xalqın gözündə vətənə xəyanət edən ən böyük namussuz kimi dəyərləndirilir. Bu baxımdan İbn Tahir (Akşinin vəziri) haqlıdır ki, türklər üçün namus hər şeydir”...

## Türk əxlaqı

Türklər üçün ocaq müqəddəsdir. Yurd müqəddəsdir. Yurda və ocağa qarşı çıxmış olanlar, türkçülük düşüncəsindən uzaq düşənlər əslində öz keçmişlərinə tüpürmüş olurlar.

Akşinin anası öz doğma oğlunu ona görə bağışlamır ki, o ilk növbədə ocağa xəyanət edir, oddan, deməli həqiqətdən qorxur. “Ana: - Oddan qorxursan? Axı səni böyüdən bu

[2] B. Vahabzadə, *Əsərləri,* C.IX, (Yayın evi ve yılı yok), səh.358.
[3] B. Vahabzadə, *a.g.e.*, səh.358.

ocaqdır. Mən sənə bu ocağın qırağında süd vermişəm, sənə layla çalmışam! Sənin ulaqlarına bu ocağın duasını oxumuşam! Sən ona arxa çevirə bilməzsən! Buna sənin haqqın yoxdur!".

Bu haqlı, yenilməz ana ittihamlarına vətən xaini Akşinin qızı Çılğın da şərikdir. O əmisi oğlu Sabutayı heç cür bağışlaya bilmir: "Yüzlərlə evləri xaraba qoyan, gəlinlərin boyunbağısından tutmuş, sırğalarına qədər, evlərindəki kilimlərindən tutmuş yorğan-döşəyə qədər çalıb talan etdiyin bir ulusa sən nə haqla "mən də sizin ulusunuzdanam "deyirsən? Özgə nizələrinin ucunda bu məmləkətə vali təyin olunan, qardaş qatili Akşin, doğmaca atasına xain çıxıb əmi qucağına atılan sən hələ bilmirsiniz ki, bu xalq sizə nifrət edir?."

Çılğın böyük bir türkçü, vətənçi kimi ona irad tutub oda, anda, şərəfə sitayiş əqidəsinin köhnəldiyini deyən Sabutaya sərrast və qəti cavab verir ki, oda, anda, şərəfə hörmətimiz, sitayişimiz də, vətənimiz də köhnə və qədimdir. Bu fikir əsl türk düşüncəsi, türk fədakarlığı kimi bütün dram boyu irəliləyən bir ideyadır. Bu ideya Babəkə haqq verir desin ki, özgənin təşəkkürünü qazanmaq üçün özünə düşmən kəsilən bədbəxtlərin aqibətinə gülürəm. Bu gülüş Sabutayın tərəddüdlərinə, yanlışını anlamasına" vəsilə olur. Bu gülüş anladır! Anladıqca Sabutayın özünü özünə qaytarır: "İçimdəki o səs, heç demə atamın səsi imiş. O, mənə, mənim qəddarlığıma gülür, məni başqa bir dünyaya çağırırdı. O səsi boğmağa çalışdım. Lakin İbn Ziyad "Ərəblərdən vergi almamalısan "dediyi zaman içimdəki həqiqət səni boğmağa mane oldu... Tərəddüd başladı... İnandım ki, biz aldanmışıq."

Hadisələrin gedişi əsl həqiqəti üzə çıxarır. Sabutay anlayır ki, o öz el-obasını bugünəcən tanımayıb. Onun haqqını tapdayıb. Böyük türk ruhunun daşıyıcıları olan bu insanlar əslində necə də mərd, qürurlu, haqq dilində danışan imişlər. Gəlmələr yalnız istila istila, "ayır, buyur" siyasəti üçün gəliblərmiş. Sabutay anlayır ki, məhz özünü də mənsub olduğu türk qövmünə asi olduqlarına görə o, ordusuz sərkərdə, əmisi Akşin hökmsüz şah talesizliyi yaşayır. Çılğın öz doğma atası Akşinə və əmisi oğlu, Babək yadigarı Sabutaya açıq-aydın anladır ki, "Qartala dəyən oxun ucunda öz lələyi var". Çılğın öz doğma atası Akşini ona görə bağışlaya bilmir ki, bu cəsur, ağır döyüşlər ustası yadellilər qarşısında cəsarət edib doğma qızına sahib çıxa bilmir. O satqın bir atanın qızı olmaqdan imtina edir. Çılğın atasından ona görə qorxur ki, onun əlləri öz doğma millətinin qanına batıb. O, atası üçün gizlində "bala", aşkarda "dustaq" olmağı qəbul etmir. Balasına ata olmağı bacarmayanın yurduna yurddaş ola biləcəyinə inanmır. Bu, əsl türk əxlaqı, yurdçu düşüncəsidir. Ölülüyü ilə daha çox diri olan Babəkin ruhu bu əxlaqda, bu yurdçuluqda yaşayır. Böyük türkçülük düşüncəsinin təməlində bu əxlaq dayanır. Çılğın haqlıdır ki, torpaq namusla yaşayıb, namusla

ölən övladını ağlamır, ona abidə olaraq yaşayır. Məhz bu əxlaq əsərin son şəklində Akşinə deməyə imkan, güc verir ki, desin:

"Akşin: – Mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam.... Hökmdar oldum, yenə də ölü idim... Ölüm qarşısında dirildim....

İbn Süheyl : - Son sözünü de!

Akşin: - Rica edirəm bu cəlladı dəyişdirəsiniz.... Çünki, o ərəbdir. İstəyirəm məni özümünkü öldürsün".[4]

"Özümünkü".... Yəni öz soyumdan, öz kökümdən gələn türk! B.Vahabzadənin türkçülük sevdasının, vətənçilik savaşının anlatdığı, gəldiyi qənaət belədir. Bu bir dərs, əbədiyyət məktəbidir.

Görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev haqlı olaraq qeyd edir ki, Akşinin müsibəti adi aldanışın, yaxud nəfsin insanı (sərkərdəni, hökmdarı) qəflətən düçar etdiyi şəxsi münasibət deyildir. "Akşinin müsibətinin kökü, sosial əsəbi xalqın taleyindən gəlib keçir. Vətənin, torpağın taleyində əks olunur...." Və başlıca olaraq Akşinin müsibəti türk ruhundan uzaq düşməsində, türkçülük savaşına qarşı çıxmasındadır. Akşin bunu anlayanda isə artıq qurbanlıq quzu taleyi ilə üzləşir. Əslində, dramaturqun türk insanına anlatdığı mətləb də budur ki, vətənə xəyanət manqurt taleyinin daşıyıcısı və virusudur.

**"Özümüzü kəsən qılınc"...**

Türk elinin havası, suyu, çörəyi o zaman adama halal olur ki, o, zamanında türk qövmünə, türk elinə şanlı zəfərlər qazandırmış, Şu-Tekin əxlaqıyla yaşayır və mücadilə aparır. Zəfərləri Qara xaqan tərəfindən dəyərləndirilir. Bu olaylar B.Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər" adlı dramında baş verir. Zəlalət o zaman başlayır ki, Qara xaqanın qardaşı oğlanları Dulu xaqan ilə Gur Şad arasında daxili çəkişmələr başlayır. Xaqanın sağlığında belə qardaşlar arasında taxt-tac uğrunda savaş gedir. Gur Şadın həyat yoldaşı Selcan bu münasibətdən əndişələnir. Atası Qara xaqandan xahiş edir ki, iki qardaş arasına nifaq salası işlərə qol qoymasın. Bəxtiyar Vahabzadə müdrik bir vətəndaş, sənətkar kimi yaxşı bilirdi ki, türk dünyasını parçalayan başlıca faktor qardaşın qardaşa qılınc çəkməsi olub. Buna görə də "Özümüzü kəsən qılınc"da bu qorxulu ənənənin alt qatını bütün çılpaqlığı ilə açmağa çalışmış, qardaşın qardaşa açdığı savaşın türk insanına yaşatdığı acı aqibəti müdrikcəsinə anlatmışdır.

---

[4] B. Vahabzadə, *a.g.e.,* səh.404.

Öz oturduğu budağı kəsməyə hazır olan, fürsət düşkünü, Qara xanın arvadı İçgen xatun əslində Çin xaqanının qızıdır. O, fürsət düşən kimi xəyanət etməyindən, türk düşmənçiliyini alovlandırmağından qalmır. Salur xan Siyan kimi əlaltılarından bacarıqla istifadə edir.

Hər cür saray, hakimiyyət çəkişmələrinə, intriqalarına, sui-qəsd cəhdlərinə baxmayaraq, ənənəyə və kökə bağlı türk xarakteri, türk düşüncəsi qalıb gəlir. Böyük türk xaqanı, Atillanın, "Özünə dön, türk oğlu, sən özünə dönəndə daha güclü olursan" səslənişi qalib gəlir. Nəticədə Göytürk xaqanı Qara xanın qardaşı oğlanları Dulu (Yaşar–Şad) xaqanla Gur Şad (Şu Tekin) anlaşırlar. Dulu xaqan etiraf edir ki, atamızdan yadigar qalan qılınc axırda özümüzü kəsməyə başladı. Atamın bu qılıncına əmim Qara xan xəyanət yolu ilə sahib çıxmışdır, əvəzində mən də xəyanət yolu ilə onun əlindən almışdım.

Ancaq Dulu xaqan anlayır ki, artıq bu cinayətlərə, ardıcıl xəyanətlərə son qoymağın zamanı yetişib. Buna görə də ata yadigarı olan qılınc daha qana batmış əllərdə qala bilməz. Ona görə də özünə qəsd etmək qərarına gəlir. Fikrini dəqiqləşdirəndən sonra qardaşı Gur–Şada üz tutub deyir: "Bu qılınca əslində sən layiq idin, Gur-Şad! Ona görə də hakimiyyət sükanı onun oğluna nəsib olmalıdır. Bu qərar əslində türk oğlunun zehniyyətinin qələbəsidir. Səhnənin dərinliyindən gələn səs də əslində bu qələbnin zəfər təranəsi kimi yüksəlir: "Ey türk! Silkələn, özünə qayıt. Sən özünə qayıdanda böyük olursan!".

"Özümüzü kəsən qılınc" da ortaq soykökə malik olan türklərin ulu keçmişinin tarixi məqamlarını diqqət mərkəzinə çəkmişdir. Bu əsər boyunca böyük şairin vətəndaşlıq mövqeyi, həyat missiyası tam ucalığı ilə özünü ifadə edir.

Sənətşünaslıq doktoru, professor İnqilab Kərimov Bəxtiyar Vahabzadənin "Özümüzü kəsən qılınc" (Göytürklər) dramı əsasında hazırlanan eyniadlı tamaşanın özəlliklərindən bəhs edərkən də əsasən, əsərdə türkçülük düşüncəsinin aparıcı rolu üzərində dayanır. Əsər əsarətə qarşı çıxan, yadelli işğalçılara qarşı mübarizəyə qalxan xalqın istək və arzularının, idealının təcəssümü kimi səslənir. Əqidə sarsılmazlığı, dönməzlik, vətənpərvərlik, cəsarət və mənəvi yenilməzlik bu əsərdə və tamaşada olduqca aktual və müasir səslənir.[5]

Doğrudan da, İ.Kərimovun qeyd etdiyi kimi, əsər boyu bir-birilə bağlanan hadisələr, söylənilən fikir və ifadələr, obrazların rəftar və niyyətləri o qədər təbii və təsirlidir ki, oxucu eyni zamanda tamaşaçı əsərdə Çin-Göytürk münasibətləri vuruşlar fonunda gözləri önünə 1988-ci ildən bəri neçə-neçə facіə və fəlakətlərlə üzləşən xalqımızı, torpağımıza erməni

[5] Panorama qəzeti, 9 iyun, 1998.

təcavüzünü göstərir. Əsərin əsas məqsədi, qayəsi "Türkün gücü onun birliyindədir"- fikrinin həyata keçirilməsinə xidmət edir." Dramaturqun bir yaradıcı şəxsiyyət kimi daha böyük hünəri ondadır ki, xalq taleyinin çox mühüm problemi haqqında tarixin konkret mərhələsində baş vermiş ibrətamiz hadisələr və fəaliyyət göstərmiş görkəmli şəxsiyyətlər haqqında məhz ədəbi əsər yaratmış, sanballı mətləbləri canlı surətlər, həyati konfliktlər əsasında bədii, obrazlı sözün qanadlarında səhnəmizə gətirmişdir. Bu mövzuya müraciət bu qədər geniş mənada götürdükdə B.Vahabzadənin yaradıcılığı üçün heç də yeni hadisə deyil. Millilik, türkçülük, azərbaycançılıq yaradıcılığının demək olar ki, bütün mərhələlərində, o cümlədən də düşmənlərimizin uydurduğu pantürkizm ideologiyası Demokl qılıncı kimi başımızın üstünü kəsdirdiyi, sosializmin siyasi qadağalarının tüğyan etdiyi illərdə B.Vahabzadənin aparıcı mövzularından biri olmuşdur.[6]

Doğrudan da belədir, Bəxtiyar Vahabzadə türkçülük düşüncəsinin dönməz təbliğatçısı kimi bütün yaradıcılığı boyunca, eləcə də dram əsərlərində bəzən açıqdan-açığa, çox vaxt da sətiraltı mənalar və eyhamlarla tariximizin şanlı səhifələrini, türk varlığını, türk xarakterini və türkün azadlıq mücadiləsini tərənnüm etmiş böyük imperiyaların ölkəmizə qarşı apardığı qəsbkarlıq siyasətinin mahiyyətini ifşa etmiş, bədii sözün imkanları daxilində onların dayaqlarını sarsıtmışdır. Böyük şair "Özümüzü kəsən qılınc" pyesində baş verən əhvalatların fonunda əslində hər bir türk insanına səsləniş edir ki, özgə bayrağının kölgəsində yaşamaq, mənsəb sahibi olmaq, əslində əl tulası olmaq kimi bir şeydir.

Ustad şair göytürklər pyesini yazmağa ömrünün son on ilini sərf etmiş, o dövrü mükəmməl şəkildə öyrənmişdir. Keçmişimizi, soykökümüzü mükəmməl şəkildə araşdırmış, 1450 il bundan əvvəl Çin civarları boyunca böyük ərazilərdə məskən salmış göytürklərin yaşam tərzi ilə tanış olmuşdur. Bütün dəqiqliyi ilə öyrənmişdir ki, babalarımızın "Ana yasası"nda, daşlara yazılmış Orxon Yenisey abidələrində milləti yad təsirlərdən qorumaq üçün necə müdrik qanunlar qəbul edilib. Bu barədə söz açanda B.Vahabzadə birmənalı şəkildə həmişə vurğulamışdır ki, "hər bir şəxs üçün ən böyük məhəbbət Vətən məhəbbətidir, Vətənin mənafeyidir."

"O vaxtın "Ana" yasasına görə orduda müxtəlif milətlər qulluq edə bilərdilər. Ancaq onbaşı, yüzbaşı, minbaşı, türənbaşı ancaq türk olmalı idi. Xaqanın yanında 7 nəfər divan üzvü və 93 nəfərdən ibarət qurultay üzvü olurmuş. Qurultay üzvlərinin yaşı 60-80 arasında olmalı imiş. Özü də bu adamların heç birinin xaqanla qohumluq əlaqəsi olmazmış. Yalnız Xaqana,

[6] B. Nəbiyev, "Açıq söz" qəzeti, 28 may, 1998-ci il.

özü də qurultayın qərarı ilə yad qızalmağa icazə verilərmiş. Bu izdivac siyasi məqsəd güdərmiş. Həm də Xaqanın ancaq türk qızından olan övladı şahzadə sayılar, taxt-tac iddiasında ola bilməzdi. Görürsünüz,  milləti saxlamaq qorumaq əcdadlarımız üçün necə mühüm əhəmiyyət kəsb edib. Uşaq hansı dildə dil açırsa, o millətə qulluq edir... Həyatda hər şey mənəviyyatdan başlayır. Millətin tənəzzülü də, tərəqqisi də mənəviyyata bağlıdır.... Ulu babalarımızın mənəviyyatı, əxlaq normaları ən yüksək tələblərə uyğun gəlir".[7]

Bu baxımdan akademik Nizami Cəfərovun fikirləri böyük maraq doğurur:

"Mənim yadımdadır ki, B.Vahabzadə dostu Çingiz Aytmatovun yaratdığı manqurt obrazı barədə 80-ci illərin əvvəllərində universitet auditoriyasında öz tələbələrinə necə böyük ehtiramla danışır, yazıçının kəşfindən necə vəcdə gəlir, hərdənbir sovet "beynəlmiləlçiliyinin" sərhədlərini dağıdaraq türk millətçiliyinin əsaslarından söhbət açırdı. B.Vahabzadənin müstəqil Azərbaycan dövlətinin qurulduğu illərdə  diqqətimizi qədim türk dövründə Göytürklərin tarixinə cəlb etməsi, bu gün bizi narahat edən problemlərin həlli üçün məhz öz keçmişimizdən nümunə götürməsi tamamilə təbiidir.[8]

**B.Vahabzadənin digər dram əsərlərində  türk tarixi - ibrət dərsi**

İftixar hissi ilə qeyd etmək olar ki, xalq şairi B.Vahabzadə türkçülük düşüncəsinin və mücadiləsinin təbliği, tərənnümü istiqamətində qələmə aldığı dram əsərlərinin simasında ümumən türk xalqları səhnəsinə möhtəşəm əsərlər bəxş etmişdir. Böyük sənətkarın dram əsərlərinin bir çoxu türk tarixinin, türkçülük düşüncəsi və ideologiyasının var olma, yaranış dövrünü əhatə etsə də, bu əsərlərdə qoyulan problemlər, təsvir edilən hadisələr çağdaş durumla həmahəng səsləşir, bir qayda olaraq zaman-zaman türk insanının, eləcə də xalqımızın başına gətirilən müsibətləri göz önünə gətirir. Onun tarixi dramları ilk növbədə türkün tarixi və bu müstəvidə bir ibrət dərsliyidir. Bu əsərlər türkün türkə qarşı açdığı savaşların acı nəticələrini yenidən göz önünə gətirir. Hər məqamı ilə ifadə edir ki, Allah türkü türkün qılıncından qorusun. Ustad şair tarixi dramlarında həmin dönəmin hadisələrinə ona görə diqqət yetirir ki, bu hadisələrin yaşantıları bu və ya digər şəkildə çağdaş həyatımızda da özünü biruzə verir. Çox vaxt tarix təkrar olunur və milli unutqanlıq sindromu türk düşüncəsinə yenidən hakim kəsilir. Bu məqamda böyük şair oxucunu, deməli ilk növbədə hər bir türk insanının səhvlərindən ibrət dərsi almağa çağırır. Oyadır. İstiqamət verir! O heç vaxt tarixi təhrif etmir. Tarixi həqəqətlərə hər zaman diqqətlə, ehtiramla yanaşır. Bu tarixi

[7] Bəxtiyar Vahazadənin 14 dekabr 1997-ci il tarixli "Respublika" qəzetinə verdiyi müsahibədən.
[8] Yeni Azərbaycan qəzeti, 26 yanvar, 1999.

həqiqətin ən önəmli yerində isə türk əqlinə, zəkasına, düşüncəsinə, türkün vətənçilik hissinə ehtiram, heyranlıq gerçəyi dayanır. Tarixə bu münasibət. B.Vahabzadənin ideya-estetik baxışlarından, sistemli prinsiplərindən irəli gəlir. Onun tarixi mövzuda yazdığı əsərlər Türk dünyası üçün əsl ibrət kitabıdır, vəsiyyətnaməsidir. Türk dünyasının birlik uğrunda olan düşüncəsinin enerjisi böyük şairin tarixi dram əsərlərinin cövhərini təşkil edir. Bu baxımdan görkəmli türk ədəbiyyatşünası Nurullah Çetin Erdəm haqlı olaraq yazır ki, B.Vahabzadəni böyük və səhih türk yazarı edən düşüncələrdən ən önəmlisi duyğusallığa uymadan, xırda hesabları bir yana buraxaraq xüsusi bir səmimiyyətlə böyük bir Turan birliyi ideyasını təbliğ və tərənnüm etməsidir. Onun tarixi dramlarının qəhrəmanları üçün dövlətin başında kimin durması yox, dövlətin özü vacibdir. Bu baxımdan B.Vahabzadə şeir yaradıcılığında olduğu kimi, dram əsərlərində də ilk növbədə türkçülük ideyalarının dönməz savaşçısıdır. Onun tarixi dramları millətin özünü özünə tanıdır. Böyük şair "tariximizin müəyyən dövründən bəhs edərkən əslində bütün tariximizi bir araya gətirir, millətimizin yaşadığı məhrumiyyətlərdən və sıxıntılardan azad olması üçün birlik yaratmalarını israrla ifadə edir".[9] Onun tarixi qəhrəmanları qədim və orta əsrlərdən çıxıb günümüzə humanizmin yenə də sınaqdan keçdiyi ideya döyüşlərində iştirak edir və bu müstəvidə ən ön sırada türkçülük düşüncəsinin, mücadiləsinin ölməzliyi, aktuallığı dayanır.

Türkçülük sevdası, türkçülük düşüncəsi böyük şairin "Atamın kitabı" dramından da dönə-dönə keçməkdədir. Əsər atavə ana arasında gedən bir mükalimə ilə başlayır. Söhbət "Dədə Qorqud" kitabından və ustad Mirzə Cəlilin "Anamın kitabı"ndan gedir. Vurğulanır ki, hər iki kitab vətən övladlarını birliyə və kökə, yəni türk əxlaqına, türk düşüncəsinə çağırır. Bəxtiyar Vahabzadə ata və ananın dili ilə öz fikrini bəyan edir ki, istəyirəm türk insanı harda olur-olsun, hansı sənəti seçir, seçsin, onların ruhu, inamı, əqidələri Vətən, türkçülük timsalı olan bu ana kitabların ətrafında dolansın.

Müəllif Vahidin dili ilə öz həmvətənlərinə, mübarizə yoldaşlarına anladır ki, bizim hamımızın əqidəsi vətəndir, millətdir, onun xoşbəxtli, onun gələcəyidir. Amma fərqimiz ondadır ki, vətənin xoşbəxtliyi üçün getdiyimiz yollar başqa-başqadır. Əsl qabiliyyət bu yolları birləşdirməkdədir. Vətən naminə birləşməyin sonu isə həmişə aydınlığa, yeni günəş, yeni ay, ulduz kəşfinə çıxarır. Bu kəşflərə ulu babaların adı verilir. Bu səbəbdən də ana öz nəvəsi Azərin varlığıyla fəxr edir. "Allah səndən razı olsun, Azər balam! Tapdığın ulduza ulu

---

[9] M.Halistin Kukul, *Erciyes dergisi,* ekim, 2008, S. 370, səh.5.

dədəmizin adını verməklə, sən ana vətənimizə səssiz-küysüz, haray-həşirsiz, dava-dalaşsız xidmət etmiş oldun. Vətənə və dədə ruhuna əsl xidmət belə olar".[10]

B.Vahabzadənin təqdimində Dədə Qorqud ruhu türkçülük yaşamı, türkçülük mövqeyi, düşüncəsi kimi qəbul olunur. Bu düşüncə birmənalı olaraq türkçülük mücadiləsi anlamını verir. Oxucuya öz əcdadlarının kimliyi barədə doğru-dürüst bilgi verir.

B.Vahabzadənin bütövlükdə 3 kitab səhifəsindən ibarət olan "Atılmış güllə" adlı teleradio pyesinin mərkəzində də türk insanının daxili böyüklüyü, mərdliyi, vüqarı öz bədii təcəssümünü dolğun şəkildə tapır. Mövzusu əfsanələşmiş, nağıllaşmış həyat hadisəsindən götürülmüş bu kiçik həcmli pyesdə türk zehniyyətinin, düşüncəsinin mükəmməl obrazı yaradılıb. Qaçaq Kərəmlə aralarında olan haqq-hesabı çürütmək üçün onun yataq otağınacan gələn Çalpapaq düşmənin halalıyla qol-boyun yatdığını görüb onu öldürməyi əxlaqına, vicdanına sığışdırmır. Sadəcə, xəbərdarlıq üçün yatağın yanına dolu bir güllə qoyub gedir. Qaçaq Kərəm yuxudan ayılanda yatağının yanına atılmış dolu gülləni görür və başa düşür ki, düşməni onu qadınına bağışlayıb. Onu qadınının yanında xar etməyib. Bu mərdlik, kişilik əslində türk insanının mükəmməl obrazıdır. Deyək ki, Şah İsmayıl Çaldıran döyüşündən bir gün əvvəl gecə ikən sərkərdəsinin "fürsəti əldən verməyək" düşmən ordusunun başının üstünü onlar yuxuda olan zaman alaq" təklifini qəti şəkildə rədd etmişdi ki, "mən karvan soyan quldurbaşı deyiləm". Bəxtiyar Vahabzadə bütün dram əsərlərində qabarıq şəkildə ifadə edir ki, türk insanı, türk düşüncəsi üçün ən böyük elm də, ən böyük həqiqət də insaf, insanlıq və vicdandır. Türk düşüncəsində şəriət məhkəmələri yox, vicdan məhkəməsi daha önəmli yer tutur. Bu münasibət qüdrətli sənətkarın" Cəzasız günah", "Yollara iz düşür", "Dar ağacı", "Hara gedir bu dünya", "Fəryad" pyeslərində dönə-dönə öz ifadəsini tapır. Bəxtiyar Vahabzadənin dram yaradıcılığında türk təfəkküründə, türk yaşamında başlıca yer tutan ailə bağlarının möhkəmliyi, ailə cəmiyyət qarşısında duyulan məsuliyyət duyğusu əsl insanlıq mövqeyindən irəli çəkilir. Ata-ana, övlad məhəbbətinin, vətən sevdasının ən problemli məqamda belə hər şeyə qalib gəlməsini böyük şair ilk növbədə türk xalqının ərdəmliyi, ənənəyə bağlılığı ilə tərənnüm edir. Göstərir ki, türk insanı həmişə ürəyinin ikinci səsini dinləmək mədəniyyəti, əxlaqı ilə böyükdür. Bəxtiyar Vahabzadənin türkçülük düşüncəsindən gələn təqdimatı belədir ki:

Təməli vicdandır hər ülviyyətin,
Ürəyi eşitmək çətindir çətin.

---
[10] M.H. Kukul, a.g.m., səh.543.

Yüksəlir, böyüyür öz ürəyinin,
İkinci səsini eşidən insan.[11]

Böyük sənətkarın dram əsərlərinin aşıladığı ən əsas tendensiya, əbədi missiya belədir ki, türk düşüncəsində vətən, əxlaq, ailə cəmiyyət qarşısında məsuliyyət duyğusu hər cür şəxsi istəkdən, şəxsi rahatlıq, şəxsi məhəbbət məsələlərindən üstündür. Əsl vətənçilik savaşı aparan türk insanının yüksək duyğularını Babəkin simasında əks etdirən Bəxtiyar Vahabzadə ədəbi qəhrəmanının dililə əslində öz münasibətini, maraq dünyasını ortaya qoymuş olur:

“Babək: - Mənim gözlərimdə artıq azad bəşəriyyət və azad diləkli yeni bir aləm rəqs edir. Bu geniş, azad sevgilər dünyasının yolu ilə bir qırıq bayrağın altındakı acılıqdan keçir. Mən onu intixab edirəm”.[12]

**Özünə dön!...Türk oğlu!...**

Bəxtiyar Vahabzadə öz böyük sələfləri Cəfər Cabbarlı, Ənvər Məmmədxanlı kimi “Dar ağacı” dramında dərin vətəndaş təəssüfü ilə göstərir ki, Azərbaycanı, deməli, qədim bir türk məmləkətini ərəblərə təslim edən türk varlığının üstünə qılınc çəkən Akşin təkcə əqidənin, inancın deyil bütövlükdə öz xalqının üzərinə yeriyir, bir ovuc ərəb qəsbkarının xidmətində durur. Akşinin məğlubiyyətinin əsas səbəbi ondadır ki, o din pərdəsi altında qədim türk torpaqlarına sahib çıxan bir ovuc qəsbkarın şirin vədlərinə inanaraq millətinə qənim kəsilmişdir. O, bir növ qartallar yuvası olan türk torpaqlarına ucunda lələk olan ox qismində atılan zavallı qurbanlıqdır. Öz millətinə qənim kəsilməklə özünü sərkərdəlikdən vergi toplayana, soyğunçuya çevirmişdir. Özgə havasına oynayan zavallıya dönmüşdür. Bu xəyanətin nəticəsi idi ki, İbn Süheyl kimi yadelli missionerlər qarətlərdən, insan qətllərindən ləzzət alaraq Azərbaycanda daşı daş üstə qoymur, qarşısına çıxanı odlara qalayır, atanı balaya qarşı çevirirlər. Təkcə ərəb xilafətinin istədiyi yerinə yetsin deyə bu talançıların qərarı belədir ki, Azərbaycan coğrafiyasında yaşayan hər bir türk insanı xilafətə boyun əymədiyi üçün qılıncdan keçirilməli, bütövlükdə məhv edilməlidir. Çünki, bu məğrur türklər iyirmi beş il ərəb xilafətinin şimala və qərbə uzanan xain, işğalçı əllərini kəsiblər, heç bir güzəştə getməyiblər. Bu missionerlər görürlər ki, heç bir xəlifə hədiyyəsinə, şirnikləndirməsinə baxmayaraq, böyük türk qəhrəmanı Babəkin azadlıq uğrunda çarpışan qılıncını onun övladları, qövmü yurddaşları daha əzmkarlıqla düşmən başına endirirdilər. Bəxtiyar

---

[11] M.H. Kukul, a.g.m., səh.188.
[12] M.H. Kukul, a.g.m., səh.362.

Vahabzadə bu inamlı təsvirləri ilə xalqa anladır ki, türk ruhuna ləyaqətlə sahib çıxanların savaşı qalibiyyətlə müjdələnir. Eyni zamanda, öz milli kökünə qənim kəsilən, gündən-günə yadlaşanların çoxalması isə gələcəyimizi uçuruma aparır.

**Nəticə**

Bəxtiyar Vahabzadə bütün dram əsərlərində qabarıq şəkildə ifadə edir ki, türk insanı, türk düşüncəsi üçün ən böyük elm də, ən böyük həqiqət də insaf, insanlıq və vicdandır. Türk düşüncəsində şəriət məhkəmələri yox, vicdan məhkəməsi daha önəmli yer tutur. Səhnənin dərinliyindən gələn səs də əslində bu qələbənin zəfər təranəsi kimi yüksəlir:" Ey türk! Silkələn, özünə qayıt. Sən özünə qayıdanda böyük olursan!".

"Özümüzü kəsən qılınc" da ortaq soykökə malik olan türklərin ulu keçmişinin tarixi məqamlarını diqqət mərkəzinə çəkir. Bu əsər boyunca böyük şairin vətəndaşlıq mövqeyi, həyat missiyası tam ucalığı ilə özünü ifadə edir. Bu münasibət qüdrətli sənətkarın "Cəzasız günah", "Yollara iz düşür", "Dar ağacı", "Hara gedir bu dünya", "Fəryad" pyeslərində dönə-dönə öz ifadəsini tapır. Zaman-zaman türk insanının, eləcə də xalqımızın başına gətirilən müsibətləri göz önünə gətirir. Onun tarixi dramları ilk növbədə türkün tarixi və bu müstəvidə bir ibrət dərsliyidir.

**İstifadə olunmuş ədəbiyyat**

Türk dünyasının Bəxtiyarı, Təfəkkür nəşriyyatı, Bakı 2002.

VAHABZADƏ, B. Əsərləri (yayın evi –yılı yok).

Panorama qəzeti, 9 iyun, 1998.

NƏBIYEV, B., "Açıq söz" qəzeti, 28 may, 1998-ci il.

M.Halistin Kukul, *Erciyes dergisi*, ekim, 2008, S. 370, səh.5.

Bəxtiyar Vahazadənin 14 dekabr 1997-ci il tarixli "Respublika" qəzetinə verdiyi müsahibədən.

Yeni Azərbaycan qəzeti, 26 yanvar, 1999.